# Bu il Aqrar Biznes festivalları bütün iqtisadi rayonlarda keçiriləcək

**Artıq neçə vaxtdır Azərbaycanda fermerləri müasir biliklər və təcrübə, aqrar sektora tətbiq edilən yeniliklərlə bağlı maarifləndirmək məqsədilə müntəzəm olaraq innovasiya festivalları keçirilir. Faktiki olaraq bu festivallar fermerlər üçün bir növ aqrar universiteti əvəz edir.**

Ötən il ölkədə 14 belə tədbir keçirilmişdir. Bu ilin ilk Aqrar Biznes Festivalı isə Salyan rayonunda təşkil edilmişdir. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu, İstehlak Mallarının Ekspertizası Mərkəzinin tərəfdaşlığı ilə keçirilən festivalda Salyan, Saatlı, Hacıqabul, Neftçala, Biləsuvar, Sabirabad, Cəlilabad rayonlarından olan fermerlər iştirak etmişlər. Festivalda innovativ həllərə əsaslanan kənd təsərrüfatı təyinatlı qurğu və avadanlıqlar, müasir texnologiyalar, aqrar sahədə müxtəlif fəaliyyət növləri ilə məşğul olan şirkətlərin məhsulları, eləcə də Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutlarının ən son nailiyyətləri nümayiş etdirilmişdir.

Festivalda həmçinin "Yazlıq aratın üstünlükləri və əhəmiyyəti", "Payızlıq taxıllara qulluq işlərinin aparılması və alaq otlarına qarşı mübarizə", "Kənd təsərrüfatı bitkilərinin sığortalanması" mövzularında fermerlərə təlimlər keçirilmiş, onlara səmərəli yetişdirmə üsulları və texnologiyalar barədə ətraflı məlumatlar verilmişdir.

Ötən ilin sonunda Kürdəmirdə keçirilmiş festival isə həmin rayonla birlikdə Sabirabad, İmişli, Zərdab, Ucarda fəaliyyət göstərən fermerləri əhatə etmişdir. Tədbirdə kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edən ənənəvi məhsullar, həmçinin "ağıllı kənd təsərrüfatı" sistemləri, quraqlığa davamlı yeni seleksiya nailiyyətləri, ekoloji sistemə uyğun texnologiyalar və mütərəqqi avadanlıqlar nümayiş olunmuşdur. Ötən ilin yekun festivalında kənd təsərrüfatı sahəsi üzrə mütərəqqi texnologiyaların tətbiqinin rolu və səmərəliliyinin nümayişi məqsədilə məhsul istehsalçıları üçün "Rəqəmsal kənd təsərrüfatı biliklərinin artırılması" bölməsi üzrə panel müzakirəsi də keçirilmişdir. Eləcə də kənd təsərrüfatı texnikalarının üzərinə yerləşdirilən və uzaqdan idarəedilən GPS texnologiyalar, kənd təsərrüfatı sahəsində fermerlərin xidmətlərə əlçatanlığının artırılması üçün yaradılmış mobil tətbiqlər barədə təqdimatlar olmuş, qabaqcıl texnologiyaların və təcrübələrin istifadəsinin müsbət tərəfləri araşdırılmışdır. Yüksək iqtisadi gəlir potensialına malik bitkilərə xüsusi diqqətin ayrıldığı festivalda iki özəl şirkət arasında imzalanan əməkdaşlıq müqaviləsi əsasında kənd təsərrüfatı texnikaları üzərində məsafədən idarəolunan GPS texnologiyaları quraşdırılmışdır. Bundan başqa, arıları "varroa" gənələrindən təmizləyən daha bir qurğu yerli şirkət tərəfindən rayon qabaqcıl arıçılarından birinə ianə edilmişdir.

Məlumat üçün qeyd edək ki, 2023-cü il ərzində 14 rayonda keçirilmiş Aqrar İnnovasiya festivallarında 12 minə yaxın fermer iştirak etmişdir. Bu il isə belə festivalların bütün iqtisadi rayonlarda keçirilməsi nəzərdə tutulur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.9.